

# Fərid Salmanzadə

***2001-ci ildə Ağcabədi rayonunda anadan olub. Hazırda Bakıda yaşayır. Orta təhsilini Qubadlı rayon Fərrux Mehdiyev adına Qaralar kənd tam orta məktəbində, musiqi təhsilini Laçın şəhər 1 saylı uşaq musiqi məktəbində alıb. Azərbaycan Milli Konservatoriyasının 2-ci kurs tələbəsidir. İxtisası xanəndəlikdir. Firuz Səxavətin tələbəsidir.***

## Qəzəllər

Adəm övladı üçün dünyaya bəxşişdi yağış,
Payızın adətidir; hər gecə vərdişdi yağış .

Bəlkə hal əhli üçün nuri-xudanın paydı,
Qəmimi badələrə qatmağa gəlmişdi yağış.
Necə ki, adət olubdur bizə hər sübh namaz.
Gecədən gözləyirəm, bəlkə də bilmişdi yağış...

Neçə min atəş oxundan keçən aşiqlərə bax,
Dənizin dalğalarından belə içmişdi yağış.

Məni məndən alan o damlaların rəqsidi ki,
Tökülüb cismimə atəşləri sevmişdi yağış.

Bəşərin kirli üzün görsə də, təəcüblü deyil,
Malik-ul Mülk verib əmr ilə səpmişdi yağış.

Bəhri, az et sözü qəlbinlə danış saç vərəqə,
Bil ki nurani səfadır yerə enmişdi yağış.

***

Yarəb bəlayi-hicrdə dövran nə üçündür?
Bu zülmət ara faniyi-cövlan nə üçündür?

Türküstan.- 2021.- 14-20 dekabr.- S.12.

Pərvanə gəlir həmdəm ola nar ilə, ey gül
Bilməm. bu dəxi rövzeyi-rizvan nə üçündür?

Eşq içrə gəzən şanələrin kuyidi zülfün
Bu qədri günahkar axı insan nə üçündür?

Eylərmi səba sübh çağından məni bizar,
Ey xaliqi-bimisal, bu səhman nə üçündür?

Bəhri, demə kim, yarı təmənna ilə sevdim,
Zikri ləbi-ləlində olan qan nə üçündür?

***

Hər sübh oyandım neçə min nemət içində ,
Bilməzdi bu canım, qalıram qəflət içində.

Çəkdim ki, zərif nəfsimə mən şanə, ey adəm,
Mənsiz keçirəm günləri var-dövlət içində.

Gəl baqiyi-dildarə ver öz sirrini, əmma
Qəlbindən ötür qəlbinə sən söhbət içində.

Sözdən nə gəzir özgə bir afət bu cahanda,
Bil qədrini, gəzdirmə onu qeybət içində.

Bir şölə saçıbdır neçə min aləmə hərgiz ,
Kor gözlərimin töhməti var xilqət içində.

Bəhri, belədir Xaliq üçün keçsən özündən,
Üqbadə yetər dadına yüz zillət içində.